## Dövlət müstəqilliyimizin bərpası – 25

❐ *Yurdumuz Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ilk onilliyində ümummilli lider Heydər Əliyevin dərin zəkası, uzaqgörənliyi, müdrikliyi sayəsində ictimai-siyasi sabitliyin əldə olunması, sosial-iqtisadi problemlərin öz həllini tapması növbəti mərhələdə respublikamızın bütün bölgələrində və həyatın müxtəlif sahələrində dinamik inkişafa zəmin yaratdı. Məhz həmin bünövrə üzərində öz işini dahi rəhbərin irsinə layiq şəkildə davam etdirən Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində ölkəmiz günü-gündən inkişaf edərək dünyanın qabaqcıl dövlətləri ilə müqayisə olunacaq səviyyəyə gəlib çatdı.*

# Şahbuz dağlarından gələn xeyir-dua



İstər ölkəmizin paytaxtı Bakı şəhərində, istərsə də bölgələrimizdə sənaye və kənd təsərrüfatı obyektlərinin, , yol-nəqliyyat infrastrukturunun, səhiyyə və təhsil ocaqlarının yeni, müasir tələblər səviyyəsində qurulması şəhər və kəndlərimizin simasını dəyişərək yurdumuzu gözəlliklər diyarına çevirdi. Son illər ərzində abadlıq-quruculuq sahəsində daha çox nailiyyətlərə imza atan Naxçıvan Muxtar Respublikası öz heyrətamiz gözəlliyi ilə öndə gedən və fərqlənən bölgələrimizdəndir. Ali Məclisin sədri Vasif Talıbovun diqqəti və qayğıkeşliyi sayəsində muxtar respublikanın bütün rayonlarında yüksək inkişaf tempi hər addımda duyulmaqdadır. Hava limanından Naxçıvanın istənilən istiqamətinə üz tutan hər kəsi şəhərin abadlığı, təmizliyi heyrətə gətirir və buranın abhavası insanı ovsunlayır.

Muxtar respublikada olan inkişaf, abadlıq işləri haqqında əvvəllər çox yazılmış və bundan sonra da ürəkdolusu danışanlar, söz deyənlər daha çox olacaqdır. Bu yazıda Şahbuz haqqında söhbətə keçməzdən öncə bir könülaçan məqama toxunmaq istərdim. Ali Məclisin sədri Vasif Talıbovun diqqət və qayğısı bütün sahələrə olduğu kimi, təhsil sahəsinə də olduqca yüksək səviyyədədir. Hər il ali məktəblərə qəbul imtahanlarında 500-dən yuxarı bal toplayıb tələbə adını qazanmış gənclərimizlə Ali Məclis sədrinin şəxsən görüş keçirməsi və hər birinin zəhmətini dəyərləndirərək mükafatlandırması Vətənimizin, millətimizin gələcəyinə diqqət və qayğıdır. Bu il yüksək bal toplamış 338 tələbəmiz də avqust ayında mükafatlandırılmışdır. Ali Məclisin sədri gənclərə uğur diləyərək, onlara Vətən üçün oxumağı, çalışmağı, daim ümummilli liderimiz Heydər Əliyevin işıqlı ideyalarına xidmət göstərərək yurdumuza töhfələr verməyi tövsiyə etmişdir. Tələbələrə, eyni zamanda, "Naxçıvan: Şərqin əfsanəsi" kitabı təqdim olunmuşdur. Naxçıvanda xalqımızın gələcəyi olan gənclərimizə qol-qanad verən, onları sabaha doğru daha inamla addımlamağa sövq edən yüksək səviyyəli diqqətin bir örnək kimi digər bölgələrimizə də sirayət etməsi çox yaxşı olardı.

Şahbuz rayonu Naxçıvan Muxtar Respublikasının keçmiş Zəngəzur mahalı ilə həmsərhəd olan, dağlar qoynunda yerləşən və həmişə öz füsunkar təbiəti ilə gəlib-gedənləri valeh edən bir bölgəsidir. Naxçıvan şəhərinin, təxminən, 30 kilometrliyində yerləşir. Şahbuz şəhərindən və kəndlərindən Naxçıvanın mərkəzinə işləyən avtobuslar müəyyən olunmuş qaydalar əsasında yerli əhaliyə xidmət göstərir. Bundan əlavə, növbədə dayanan taksi sürücüləri tələsən sərnişinləri, qonaqları yüksək səviyyədə qarşılayıb lazımi ünvanlara çatdırmağı özlərinə borc bilirlər. Əyləşdiyimiz taksinin gənc sürücüsü ilə tanışlıqdan sonra vəziyyətin, yaşayışın necə olmasını xəbər alıram. Yanında əyləşən digər sürücü Zəka söhbətə başlayır :

– Vəziyyət çox yaxşıdır. Baxın, yollarımız şüşə kimidir. Şəhərimizin bütün dağ kəndlərinə -- Nursuya, Keçiliyə, Küküyə, Biçənəyə gedən yolların hamısına asfalt salınmışdır və biz də müştərilərimizə nümunəvi xidmət göstəririk.

Yolun rahatlığından, söhbətin şirinliyindən Şahbuz şəhərinə çatmağımız, sanki, ani olur. Şəhərə girərgirməz gözəllik təmtərağının ab-havası insanı heyrətə gətirir və istiqlalımızın, müstəqilliyimizin xoş duyğularını yaşadır. Şəhər mərkəzinə çatmamış Heydər Əliyev prospektinin aşağı hissəsində maşından düşərək prospekt boyunca piyada gəzməyə, şəhərin mənzərəsindən doyunca zövq almağa çalışırıq.

Yolun kənarlarında əkilmiş gül kollarının və bəzək ağaclarının arasından keçən piyada yolu ilə irəliləyərək, birbirindən fərqli gözəl mənzərəli tikililəri, dövlət inzibati-idarə binalarını seyr edirik. Şəhərin mərkəzinə yaxın yerdə yerləşən Şahbuz Şahmat Məktəbinin önündə dayanıb binanı seyr edərkən 30 il öncə tələbə yoldaşı olduğum Əli Gülmalıyevlə rastlaşırıq. Qısa söhbətdən sonra Şahmat Məktəbinin direktoru olduğunu deyir:

– Ötən il bu məktəbə direktor təyin edilmişəm. Məqsədimiz yurdumuzun adını dünya şahmat tarixinə yazacaq gənclər yetişdirməkdir. Rayonumuzun gözəlliyindən isə danışmağa ehtiyac duymuram. Gözəllik göz önündə olanda ondan danışmazlar, onu seyr edərlər,-- deyərək gülümsəyir və bəzi yeniliklərlə bizi tanış etmək üçün söhbətə qoşulur. Yol boyunca söhbət edə-edə Şahbuzun yeni avtovağzalını dolaşdıqdan sonra Batabat bulağı parkına yollanırıq. Bu bulağın suyu adı dillər əzbəri olan Batabat yaylağından gəlir və şəhər sakinlərinin hər birinin həyətinə, evinə dövlət vəsaiti hesabına çəkilmişdir.

### Şahbuzun yeni görünüşü

Batabat bulağının sərin suyundan içdikdən sonra şəhərin digər görməli, gəzməli yerlərini dolaşırıq. Onların hamısı müasir tələblərə cavab verən səviyyədədir. Şahbuz şəhər 1 nömrəli məktəbi və Şahbuz şəhər mərkəzi xəstəxanasında iş rejimi və yaradılmış gözəl şəraitlə maraqlanıb tanış oluruq. Bu qədər zəngin təəssüratlarla qəlbimiz dolu ikən, Şahbuzun Bayraq meydanına baş çəkməyimiz bizi yaxşı mənada daha çox təsirləndirir. Bayrağın ətrafında daşlar üzərində yonulmuş milli naxışlarımızın rəngarəngliyi, qeyri-adiliyi gəzintiyə, ziyarətə gələn hər kəsin qəlbini, ruhunu oxşayır.

Qəlbimizdə bu abadlıq işlərini görənlərin hamısına alqış və minnətdarlıq hissi ilə Şahbuz Rayon İcra Hakimiyyətinə yollanırıq. Qəbul günü olmasa da rayon rəhbəri ilə görüşümüz alınır. Nurəddin müəllim bizi səmimi və gülərüz qarşılayır. Onu da qeyd edim ki, Nurəddin Quliyev Şahbuzun Qarababa kəndində dünyaya göz açmışdır. Ali təhsil aldıqdan sonra öz doğma məktəbində əmək fəaliyyətinə başlamış, bir neçə il sonra məktəbin direktoru, daha sonra Şahbuz Rayon Təhsil Söbəsinin müdiri vəzifələrində çalışmışdır. Qətiyyəti, işgüzarlığı ilə fərqlənən bir dövlət qulluqçusu kimi, Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmuşdur. On ildən artıqdır ki, layiqincə bu vəzifədə çalışmaqdadır. Həm Şahbuzun iqtisadiyyatına, kənd təsərrüfatına dərindən bələd olması, həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən verilən qərarların, tapşırıqların vaxtında və yüksək səviyyədə yerinə yetirməsi sayəsində Şahbuzun bugünkü uğurlarına nail olmuşdur.



Rayon rəhbəri ilə söhbətimizə şəhərin gözəlliyindən, ondan aldığımız xoş təəssüratlardan başlayırıq. O, üzündə təbəssüm öz təəssüratlarını bizimlə bölüşür: "Bu gözəllik, bu abadlıq, bu sevinc hissləri hamısı 25–30 il öncə bizim hamımızın arzuladığımız müstəqilliyimizin, istiqlalımızın bəhrəsidir. Biz bundan sonra da daha ciddi səylə çalışmalıyıq ki, Vətənimiz daha da gözəlləşsin, yerli əhalinin sosial-iqtisadi vəziyyəti hamımızı qane etsin və doğma Azərbaycanımız dünyanın inkişaf etmiş ölkələri ilə bərabər, bir sırada addımlasın. Muxtar respublikamızda "Kənd mərkəzlərinin yaradılması" layihəsi əsasında rayonumuzun kəndlərində göz oxşayan tikililərimiz, bütün kənd yollarina asfalt salınması sakinlərimizin rahatlığı və güzəranı üçün edilmişdir. Biz hər iş həftəsində işimizə vətəndaşların qəbulu, onların mövcud problemlərinin həll olunması ilə başlayırıq. Bu bizim vəzifə borcumuzdur və biz bu borcu yerinə yetirməkdən şərəf duyuruq."

Ertəsi gün rayonun kəndlərini görmək üçün yola çıxırıq. İlk görüşünə getdiyimiz Nursu kəndi – Xalq şairimiz ölməz Məmməd Arazın doğulub boyabaşa çatdığı, dağlarının sədasından, çeşmələrinin zümzüməsindən, çiçəklərinin ətrindən ilhamlandığı kənd olur. Nursu kəndinin Ziyarat adlanan yerinə çatar-çatmaz kəndin dağlarından axıb gələn sərin hava kəskin şəkildə duyulur. Quzey körpüsündən keçərək kənd mərkəzinə çatırıq. Kənd mağazası, iaşə xidməti binası, kənd məktəbi, xəstəxanası, icra nümayəndəliyi binası hər biri öz görünüşü, ətrafının gülüçiçəyi ilə insana zövq verir. Məktəb və icra nümayəndəliyi önündə salınmış, gecə işıqları ilə bəzədilmiş parkları isə daha çox diqqəti cəlb edir.

Nursu kəndində bizi ilk qarşılayan icra nümayəndəsi Elvin İbrahimov oldu. Daha sonra Nursu məktəbinin müəllimləri Rizvan müəllimlə, Baba müəllimlə, məktəb direktoru Xanəli Əmişovla həmsöhbət oluruq. Onlar Nursu kəndinin gözəl təbiəti, tarixi, məktəbi haqqında söz açaraq tarixçi – alim İbrahim Bağırovun, ədəbiyyatşünas Firudin Hüseynovun, akademik Adil Bağırovun və onlarca elmlər doktoru, müxtəlif elm sahələri üzrə çox sayda fəlsəfə doktorlarının, bir neçə gənc yazıçı və şairin bu kəndin yetirmələri olduğunu qeyd edirlər.

Belə xoş əhvalla şair Məmməd Arazın ev muzeyini ziyarətimiz, icra nümayəndəsi Elvin İbrahimovun(Məmməd Arazın qardaşı oğludur) şair haqqında danışdığı canlı xatirələr ovqatımızı daha da yüksəldir. Onu da qeyd edim ki, Nursu kəndində dili söz tutan hər bir körpə şairin şeirlərini əzbər bilir.

### Xalq şairi Məmməd Arazın ev muzeyi

İki gün ərzində Şahbuzun Kükü, Kolanı, Qışlaq, Ağbulaq, Sələsüz, Badamlı, Daylaqlı, Biçənək, Külüs, Keçili kəndlərini, Batabat yaylağını, dolaşdıq və hər bir kənddə abadlıq, quruculuq işlərinin olduqca yüksək səviyyədə aparıldığının şahidi olduq. Ağbulaq Turizm İstirahət Mərkəzinə və Batabat yaylağına il ərzində çox sayda turistin gəldiyini yerli sakinlərlə söhbət əsnasında öyrənirik.

### Ağbulaq turizm istirahət mərkəzi

Keçili kəndinin sakinləri ilə qısa görüşdən sonra müstəqilliyimizdən öncə uzun illər Şahbuz rayonunda müxtəlif məsul vəzifələrində çalışmış fərdi təqaüdçü Məmməd Bağırovu evində ziyarət edirik. Ağsaqqal Məmməd müəllim Şahbuzun bugünkü vəziyyətindən ürəkdolusu danışır. Qeyd edir ki, Şahbuz əvvəlki dövrlə müqayisə olunmayacaq dərəcədə dəyişib, gözəlləşib. O, müstəqil Azərbaycan dövləti tərəfindən bütün regionlarımızın inkişafı üçün yetərincə vəsait ayrıldığını vurğulayır.

Keçili kəndindən geri dönərkən kəndin ən yaşlı sakinlərindən biri olan 92 yaşlı Qardaşxan Kərimovla elə yolda tanış oluruq. Qardaşxan dayı çəliyin köməyi ilə yerisə də, suvarmadan gəlirdi. Heç demə, el ağsaqqalı Şahbuzda görülən bütün işlərdən xəbərdar imiş. Gəzib-gördüyümüz yerlər haqqında bizə maraqlı söhbətlər edir və sonda onun minnətdarlığını da hamıya çatdırmağı boynumuza qoyur. Elə bu yazını da Qardaşxan dayının sözləri ilə tamamlayırıq: "Bütün xeyirxah insanları, xalqa yaxşı xidmət göstərənləri, rahatlıq yaradanları Tanrı qorusun, ömürləri uzun olsun! Azərbaycan Respublikasının müstəqilliyi əbədi olsun!"

***Əbülfət ZEYNALOĞLU,***
***AYB-nin üzvü, müəllim, müharibə veteranı***

